# SÖZ İŞIĞINDA GÖRÜNƏNLƏR



<u>*Şəfəq Nasir*</u>

**Həmişə düşüncəmdə boyunu sevələdiyim, əzizləyib ürəyimə saldığım, gözümün qarşısından kənara qoymadığım mövzularım olur. Tədqiqat xarakterli yazılar - qədim yurd yerlərimizlə, tarixi şəxsiyyətlərlə bağlı təəssüratlar, nostaljilərə könül verdiyim esselər... Bu çoxçeşidli mövzular düşüncəmdə sanki sıraya, növbəyə düzülürlər, ərsəyə gəlməkdən ötrü gözləri yol çəkir. Elə mənim də ürəyim gecə-gündüz hələ dünyaya gəlməmiş, doğulmamış, övlad timsalında gördüyüm həmin mövzularda qalır. Məqam axtarıram ki, onları həyata gətirim. Amma belə yazıların gün işığına çıxması bir başqa ab-hava istəyir. Bir də ki, onların zamanında doğulmasını ləngidən səbəblər də meydanda hazırdı: ya çalışdığım qəzetin cari işləri (redaktə olunası materiallar, redaktorun xüsusi tapşırıqları...) imkan vermir, məqam yarananda da ovqat yerində olmur. Elə də olur ki, özümü bir mövzunu işləməyə təzəcə səfərbər edirəm, bir də baxıram barmaqlarım bilgisayara tamam ayrı şeylər ötürür. Nə isə...**

### *Tələbə yoldaşım,*

iki qrupun içərisində (622-624) 11 pəridən biri, hələ o çağlardan ağlı, fəhmi, qabiliyyəti, ən başlıcası da insansevərliyi, mehribanlığı ilə könlümə yatan, görüşmədiyimiz uzun illərdə vaxt-bivaxt hafizəmdən boylanan Nərgiz Bayramovanı (Nərgiz Ladən) bir Söz çələngi ilə salamlamaq həvəsindəyəm. Bəlkə də çoxdan qələmə gəlməli idi bu yazı, lap çoxdan. Tələbəlik çağlarımızda bu bakılı qız cəmi bir il yaşadığım Universitet yataqxanasında, sonra da kirayədə qaldığım evdə arabir mənə baş çəkərdi. Deyib-gülüb danışar, dərdləşərdik, onun yoldaşlığı ürəyimi açardı. Bu istilik qarşılıqlı olduğundan mən də Universiteti bitirdikdən sonra bir neçə dəfə Moskvada olanda onun yenicə doğulmuş körpəsinə, özünə hədiyyə almağı bir dost, bacı kimi mənəvi borcum bilirdim. Nərgiz də mənim bu xırda qayğımdan, mədəni davranışımdan (bilirəm, bu yerdə dodağınız bir balaca qaçdı, yaxşı, bəs buna daha nə ad verim ki!) xoşhal olardı. Xatırlayıram, bir dəfə Nərgiz mənə üstündə səma rəngində qaşı olan bir cüt italyan gümüşündən hazırlanmış sırğa bağışlamışdı (amma o zaman həmin sırğanı tələbə olan qızım taxdı və az sonra hardasa salıb itirdi...), ürəkdən gələn bu təmənnasız könül sevindirmələr bir-birimizə istəyimizin, bağlılığımızın təzahürü idi...

Onunla bir də sosial şəbəkədə görüşdük. Ötən ildi deyəsən, bir gün fasebookda gördüm ki, Nərgizin doğum günündən düz 7 gün ötüb. Nədənsə, onun bu əlamətdar günü gözümdən qaçıb, bu da həmin günlər orda az-az görünməyimdən yaranıb... Bundan mütəəssir olsam da düşündüm ki, Söz həmişə, hər vaxt diridi, yaşarıdı, elə ona görə də Nərgizin, üstündən 7 gün keçmiş ad gününə təbrik sözümün gecikdiyindən heç də ürəyimi yeyib, özümü danlamayım. Bir də ki, deyəcəklərim təkcə onun doğum günü ilə bağlı olmayacaqdı axı! Xətmi-kəlam, düşüncəmdə sırada olan, yazmağı planlaşdırdığım mövzulardan biri də jurnalist, tərcüməçi, filologiya üzrə fəlsəfə doktoru Nərgiz Bayramova haqqında Söz deməl istəyimdir.

Yəqin çoxları mənimlə razılaşar ki, bəzən gənclik çağlarında bir yerdə olduğun, yoldaşlıq, dostluq etdiyin insanları hərtərəfli, xarakterinin bütün incəliklərinə kimi görə, duya bilmirsən, onun fərqli xüsusiyyətlərini, özəlliklərini qədərincə müşahidə etməyə həyat təcrübənin hələ ki az olması baxımından qənaətin formalaşa bilmir, bir də vaxtın, zamanın darlığından imkanın olmur. Həyat hərəni bir tərəfə atandan sonra hər kəsin başı öz qayğı və problemlərinə, iş-gücünə qarışdığından gənclik illərinin dostlarını sonrakı məqamlarda izləyə bilmirsən.

### *Uzun zaman*

**içrə püxtələşən xarakterindən, əməli çalışmalarından xəbərsiz olursan. Amma illər sonra ictimai mühitdə hansı birininsə əməli fəaliyyəti, səsi, sözü ilə rastlaşırsan, o zaman gənclik illərindən fərqli olaraq tələbə dostunla bağlı təəssüratların xeyli zənginləşir. Bu mənada 11 pərimizin Nərgiz sonasının ictimai həytımızdakı ziyalı mövqeyi, fəaliyyəti məni çox sevindirir...**

### *Nərgiz Bayramovanın əmək fəaliyyəti*

***çox məhsuldar olub. Gənclik illərindən radio-televiziya ilə əməkdaşlığı (o, rus və fars dillərini mükəmməl bilir, bu üzdən də tərcümə sahəsində çalışmaları həmişə yüksək səviyyədə olub), "Yazıçı" nəşriyyatındakı fəaliyyəti səmərəli olması ilə ürəkaçandı.***

"Yazıçı"da redaktor kimi fəaliyyət göstərib, bir sıra bədii, publisist kitabların redak-



toru olub. Sonra PA Milli Siyasət üzrə Dövlət Müşavirinin yanında çalışıb. Amma onun elmi işə həvəsi olduğundan ali təhsil ocağına getməyi düşünüb. Elə "Təfəkkür" Universitetində pedaqoji fəaliyyətlə məşğul olması da tədqiqat işinə marağından yaranıb və elmi axtarışlarda olub. 2002-ci ildə "Müasir nəsrin janr və poetika axtarışları" (Elçinin bədii nəsri əsasında) mövzusunda elmi işini uğurla müdafiə edərək, filologiya elmləri namizədi adını alıb. Bundan sonra "Elçin nəsrinin poetiksı" mövzusunda monoqrafiysını çap etdirib.

N.Bayramovanın tərcümə sahəsində təcrübəsi, peşəkarlığı onun bir sıra ciddi sahələrdə çalışmasına yol açıb. Azərbaycan Dövlət Teleqraf Agentliyində Buraxılış redaktoru, 2005-ci ildə İctimai Televiziya və Radio Yayımları şirkətinin "Carçı" Xəbərlər Departmentində Beynəlxalq informasiyaların qəbulu və tərcüməsi şöbəsinin rəisi vəzifəsində işləyib. İTV-nin Kino-dublyaj Departamentində onlarla filmlər tərcümə edib. Bütün bunlar heç şübhəsiz, Nərgizin istedad və bacarığını güzgü kimi əks etdirmişdir. Bədii yaradıcılığa gəlincə, deməliyəm ki, "Azərbaycan" jurnalında və digər mətbuat orqanlarında povest və hekayələri, elmi-publisistik məqalələri dərc olunmuşdur.

***O, gəncliyindən bağlandığı mütaliəsini bu gün də eyni həvəslə davam etdirir. Bax bu, zənnimcə, Nərgizin ən gözəl keyfiyyətlərindəndir. Geniş dünyagörüşə malik ziyalı xanım bu gün gündəmə çıxarılan bütün mövzulara, problemlərə münasibətini həyati baxımdan böyük səriştə və bacarıqla, elmi-ədəbi-fəlsəfi aspekdə araşdırmağa, rəy bildirməyə qadir alimdir.***

Nə vaxtsa onun belə bir qeydlərini oxumuşdum: "Mən duyğusal insanam. Zaman içində vaxtın necə aramsız ötdüyünü divardakı saatın tıqqıltısından daha kəskin hiss edirəm. Bu tıqqıltılar xəyalən ötən illərə aparır məni... Anladım ki, məktəb illəri mənə "sovet vətənpərvərliyini", Universitetdə oxuduğum vaxtda vətənimiz Azərbaycanın hər bölgəsindən gəlmiş tələbə yoldaşlarımla ünsiyyət, getdikcə yaranan yaxınlıq, doğmalıq mənə məhz milli vətənpərərlik duyğusunu aşıladı... " Zatən bizim nəslin nümayəndələri belə bir ruhda tərbiyə olunublar.

***O, nə yazır-yazsın, fikrini yığcam ifadə edir, lakonik yazır. Onun hər vaxt müzakirə müstəvisinə gətirilən milli-bəşəri mövzularda polemikaya girməsi, hansısa bir mövzuya məntiqi baxımdan doğru münasibət bildirməsi məni valeh edir.***

### *Hələ tələbəlik çağlarımızdan*

**onun sözündə, söhbətində sətiraltı bir məna, fikir olduğunu hiss edirdim. Bu gün də fikirlərinin daha dərin məna, mətləb ifadə etdiyinin fərqindəyəm. Hansısa bayram günlərinin birində Nərgiz mənə belə bir status göndərdi: "İnsan qığılcımdan doğur, bu qığılcım sönə də bilir, alovlana da... Həyatda var olmaqla yaxınları, doğmaları görürük. Arzularımızın çin olmasını istəyirik. Hansı müddətdə, nə dərəcədə... Həyatı ona görə sevirik ki, doğmaları sevirik, onları sevməyimiz bizə həyatı sevdirir. Allah bizə beyin-zəka aydınlığı, saflığı verir ki, ruhumuz pərvazlansın, onun duyduğunu sözə çevirək. Nəbzimiz qələmimizdə çarpsın... " Duyğu ki var, o özünü yaradıcı insanlarda daha rəngarəng formada göstərir... O da ola təbiətin oyandığı vaxtlarda - yaz aylarında. Kim bilir, bu yaz ruhumuzda hansı daşqınları yaradacaq. Amma onu bilirəm ki, bu daşqınlar bizi hər zaman sözümüzün işığında görüşdürəcək...**

Ədalət.- 2020.- 13 mart.- S.7